# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatında şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və mövcud qanunvericiliyə müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi
- Mövcud qanunvericiliyə uyğunluğun bəyan edilməsi və əgər əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi
- Əgər yaxın gələcəkdə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi
- Maliyyə hesabatlarının mövcud qanunvericiliyə uyğun olaraq düzgün hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi
- Mühasibat sisteminin Azərbaycan Respublikasının qanunvericilik və mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi
- Mümkün imkanlardan istifadə edərək aktivlərin mühafizə edilməsinin təşkil olunması
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

Sədr müavini ____________________

Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri ____________________ M.Y.

AZƏRBAYCAN MELİORASİYA və SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Maliyyə və iqtisadiyyat şöbəsinin müdir müavini ____________________

## MÜSTƏQİL AUDİTOR HESABATI

«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» ASC

RƏY

«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» ASC-nin (bundan sonra cəmiyyət) 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından (konsolidə edilmiş), məcmu gəlirlərə dair hesabatından (konsolidə edilmiş), kapitalda dəyişikliklər hesabatından (konsolidə edilmiş) və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hesabatından(konsolidə edilmiş), habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına (konsolidə edilmiş) qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandlrmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və idarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində,əhəmiyyətli təhriflərin olub – olmadığına dair kafi əminlik əldə etmək və rəyin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**İdarəedici Partnyor**
**E. Əliyev**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti BKR İŞIK KONSALTINQ Limited Liability Company Azerbaijan Republic

Bakı şəhəri, Azərbaycan Respublikası

08.08.2022

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC

## Maliyyə vəziyyəti haqqında hesabat (konsolidə edilmiş)

**31 dekabr 2021-ci il tarixə**

AZN

| Bölmə/Maddələrin adı | 2021 | 2020 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Qısamüddətli aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | |
| Qısamüddətli debitor borcları | 21 839 | 244 278 |
| Ehtiyatlar | 33 442 642 | 26 742 691 |
| Sair qısamüddətli maliyyə aktivləri | | |
| Sair qısamüddətli aktivlər | 14 416 445 | 3 500 350 |
| *Cəmi qısamüddətli aktivlər* | *47 880 926* | *30 487 319* |
| **Uzunmüddətli aktivlər** | | |
| Uzunmüddətli debitor borcları | | |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| Torpaq, tikili və avadanlıqlar və digər uzunmüddətli aktivlər | 3 488 520 839 | 3 413 860 640 |
| Qeyri-maddi aktivlər | 2 712 695 | 1 095 651 |
| Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | | |
| Təxirə salınmış vergi aktivləri | | |
| Sair uzunmüddətli aktivlər | | |
| *Cəmi uzunmüddətli aktivlər* | *3 491 233 534* | *3 414 956 291* |
| *CƏMİ AKTİVLƏR* | *3 539 114 460* | *3 445 443 610* |
| **ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli kreditor borcları | 125 889 | 6 073 356 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Sair qısamüddətli öhdəliklər | 14 407 351 | 3 460 051 |
| *Cəmi qısamüddətli öhdəliklər* | *14 533 240* | *9 533 407* |
| Uzunmüddətli öhdəliklər | | |
| Uzunmüddətli kreditor borcları | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Sair uzunmüddətli öhdəliklər | | |
| *Cəmi uzunmüddətli öhdəliklər* | *0* | *0* |
| *Cəmi öhdəliklər* | *14 533 240* | *9 533 407* |
| Xalis Aktivlər (Kapital) | | |
| Ödənilmiş nizamnamə (nominal) kapitalı | | |
| Emissiya gəliri | | |
| Geri alınmış kapital (səhmlər) | | |
| Kapital ehtiyatları | 3 524 671 274 | 3 441 739 281 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -90 054 | -5 829 078 |
| *Cəmi xalis aktivlər (kapital)* | *3 524 581 220* | *3 435 910 203* |
| *Cəmi xalis aktivlər (kapital) və öhdəliklər* | *3 539 114 460* | *3 445 443 610* |

Sədr müavini

Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

M.Y.

Maliyyə və iqtisadiyyat şöbəsinin müdir müavini

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC

### Məcmu mənfəət və zərər haqqında hesabat (konsolidə edilmiş)

**31 dekabr 2021-ci il tarixə**

AZN

| | 2021 | 2020 |
|---|---|---|
| **Gəlirlər** | | |
| Vergi və məcburi ödənişlərdən daxilolmalar üzrə qeyri-birja gəlirləri | | |
| Qeyri-birja əməliyyatlarından gəlir | 500 405 182,00 | 571 014 594,00 |
| Birja əməliyyatlarından gəlir | 4 124 043,00 | 4 008 185,00 |
| Sair əməliyyat gəlirləri | 124 354 918,00 | 300 339 160,00 |
| ***Cəmi gəlirlər*** | ***628 884 143,00*** | ***875 361 939,00*** |
| ***Xərclər*** | | |
| Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı azalmalar (artımlar) | | |
| Sərf edilmiş materialların dəyəri | 85 343 927,00 | 77 976 493,00 |
| Əmək haqqı, əmək haqqına görə ayırmalar və işçilərlə bağlı digər xərclər | 119 860 512,00 | 121 964 790,00 |
| Amortizasiya xərcləri | 226 568 236,00 | 189 431 031,00 |
| Maliyyə yardımları və sair transfer ödənişləri üzrə xərclər | | |
| Sair əməliyyat xərcləri o cümlədən | 117 973 858,00 | 133 027 672,00 |
| xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər | | |
| xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər1 | | |
| Maliyyə xərcləri | | |
| ***Cəmi xərclər*** | ***549 746 533,00*** | ***522 399 986,00*** |
| ***Mənfəət (zərər)*** | ***79 137 610,00*** | ***352 961 953,00*** |
| Ümumi mənfəət (zərər) | 79 137 610,00 | 352 961 953,00 |
| Asılı müəssisələrin mənfəətində (zərərində) pay | | |
| ***Mənfəət (zərər)*** | ***79 137 610,00*** | ***352 961 953,00*** |
| o cümlədən sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəət (zərər) | | |
| ***Mənfəət vergisi*** | ***0,00*** | ***0,00*** |
| ***Xalis mənfəət (zərər)*** | ***79 137 610,00*** | ***352 961 953,00*** |

Sədr müavini

Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

M.Y.

Maliyyə və iqtisadiyyat şöbəsinin müdir müavini

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC**

**Kapitalda dəyişiklər haqqında hesabat (konsolidə edilmiş)**

**31 dekabr 2021-ci il tarixə**

AZN

| | Nizamnamə kapitalı | Ehtiyat fondları | | | | Bölüşdürülməmiş mənfəət /zərər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| *1 yanvar 2020 tarixə qalıq* | | | | | *3 445 443 610,00* | | *3 445 443 610,00* |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | 0,00 |
| ***1 yanvar 2020-ci il tarixinə düzəlişlərdən sonra qalıq*** | *0,00* | *0,00* | *0,00* | *0,00* | *3 445 443 610,00* | *0,00* | *3 445 443 610,00* |
| ***Əvvəlki hesabat dövrü üzrə xalis aktivlərdə ( kapitalda) dəyişikliklər*** | | | | | | | |
| Əmlakın yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | 0,00 |
| İnvestisiyaların yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | 0,00 |
| Xarici ölkələrdə aparılan fəaliyyətlərindən yaranan məzənnə fərqi | | | | | | | 0,00 |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | | | | | | | 0,00 |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | 0,00 |
| Hesabat dövrü üzrə mənfəət (zərər) | | | | | | | 0,00 |
| ***Hesabat dövrü üzrə xalis aktivlərdə (kapitalda) cəmi dəyişikliklər*** | **0,00** | **0,00** | **0,00** | **0,00** | **0,00** | **0,00** | **0,00** |
| *1 yanvar 2021 tarixə qalıq* | *0,00* | *0,00* | *0,00* | *0,00* | *3 445 443 610,00* | *0,00* | *3 445 443 610,00* |
| ***Hesabat dövrü üzrə xalis aktivlərdə (kapitalda) dəyişikliklər*** | | | | | | | |
| Əmlakın yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | 0,00 |
| İnvestisiyaların yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | 0,00 |
| Xarici ölkələrdə aparılan fəaliyyətlərindən yaranan məzənnə fərqi | | | | | | | 0,00 |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | | | | | | | 0,00 |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | 0,00 |
| Hesabat dövrü üzrə mənfəət (zərər) | | | | | 79 137 610,00 | | 79 137 610,00 |
| ***Hesabat dövrü üzrə xalis aktivlərdə (kapitalda) cəmi dəyişikliklər*** | **0,00** | **0,00** | **0,00** | **0,00** | **79 137 610,00** | **0,00** | **79 137 610,00** |
| ***Hesabat dövrünün sonuna olan qalıq*** | *0,00* | *0,00* | *0,00* | *0,00* | *3 524 581 220,00* | *0,00* | *3 524 581 220,00* |

Sədr müavini

Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri M.Y.

Maliyyə və iqtisadiyyat şöbəsinin müdir müavini

AZƏRBAYCAN MELİORASİYA və SU TƏSƏRRÜFATI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC**

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (konsolidə edilmiş)**

**31 dekabr 2021-cI il tarixə**

| | | AZN |
|---|---|---|
| | **2021** | **2020** |
| ***Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti*** | | |
| ***Pul daxilolmaları:*** | | |
| Vergilər, rüsumlar və cərimələr nəticəsində yaranan pul vəsaiti daxilolmaları | | |
| Mal və xidmətlərin qiymətləri üzrə yaranan pul vəsaitlərinin daxilolmaları vəsaitlər və büdcə ayırmaları nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 508 783 058,00 | 574 627 436,00 |
| Royalti, haqlar, komisyon yığımları və digər gəlirlərdən yaranan pul vəsaitlərinin daxilolması | 4 808 569,00 | 3 848 441,00 |
| ***CƏMİ DAXİLOLMALAR*** | ***513 591 627,00*** | ***578 475 877,00*** |
| ***Pul xaricolmaları:*** | | |
| Fəaliyyətin maliyyələşdirilməsi üçün büdcə təşkilatının digər təsərrüfat subyektlərinə pul vəsaitlərinin ödənilməsi (kreditlər istisna olmaqla) | | |
| Mallara və xidmətlərə görə təchizatçılara pul vəsaitlərinin ödənişləri | 222 938 772,00 | 234 468 896,00 |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | 119 856 430,00 | 121 967 145,00 |
| Sığorta şirkətinin sığorta mükafatları və ya iddialar, annuitetlər və digər müavinət siyasətləri üzrə pul vəsaitlərinin ödənişləri | | |
| Əməliyyat fəaliyyəti ilə əlaqədar olan müvafiq vergilərin, tədiyələrin ödənilməsi ilə bağlı pul vəsaitlərinin ödənişləri | | |
| Məhkəmə prosesləri ilə əlaqədar pul vəsaitlərinin ödənişləri | | |
| Büdcəyə qaytarılan vəsait | 1 607 664,00 | 1 167 527,00 |
| ***CƏMİ XARİCOLMALAR*** | ***344 402 866,00*** | ***357 603 568,00*** |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | ***169 188 761,00*** | ***220 872 309,00*** |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri*** | | |
| ***Pul daxilolmaları:*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi və digər uzunmüddətli aktivlərin satılmasından əldə olunan pul vəsaitləri | | |
| Digər təsərrüfat subyektlərinin pay və ya borc alətlərinin və birgə təşkilatlarda iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və dilinq və ya ticarət məqsədləri ucun saxlanılan alətlər üzrə pul vəsaitlərinin | | |
| Digər tərəflərə təqdim edilmiş avansların və kreditlərin qaytarılmasından pul vəsaitlərinin daxilolmaları (maliyyə institutlarının avans və kreditləri istisna | | |
| Müqavilələrin dilinq və ya ticarət məqsədləri üçün saxlanıldığı və daxilolmaların maliyyələşdirmə üzrə fəaliyyət kimi təsnifləşdirildiyi hallar istisna olmaqla, fyucers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları | | |
| ***CƏMİ DAXİLOLMALAR*** | | |
| ***Pul xaricolmaları:*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi və digər uzunmüddətli aktivlərin əldə edilməsi məqsədilə pul vəsaitlərinin ödənişləri. Bu ödənişlər təsərrüfat subyekti tərəfindən öz gücünə inşa edilmiş torpaq, tikili və avadanlıqlar, habelə layihələr üzrə kapitallaşdırılan xərclərə aid ödənişləri daxil edir | 169 188 761,00 | 220 872 309,00 |
| Digər təsərrufat subyektlərinin pay və ya borc alətlərinin və birgə təşkilatlarda iştirak paylarının əldə edilməsi üçün odənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və dilinq və ya ticarət məqsədləri ucun saxlanılan alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla) | | |

| | | |
|---|---|---|
| Digər tərəflərə təqdim edilən avanslar və borc vəsaitləri (dövlət maliyyə qurumlarına təqdim edilən avanslar və borc vəsaitləri istisna olmaqla) | | |
| Xarici valyutada qiymətli kağızların alınması | | |
| Müqavilələrin dilinq və ya ticarət məqsədləri üçün saxlanıldığı və ödənişlərin maliyyələşdirmə fəaliyyəti kimi təsnifləşdirildiyi hallar istisna olmaqla, fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri | | |
| ***CƏMİ XARİCOLMALAR*** | *169 188 761,00* | *220 872 309,00* |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | *-169 188 761,00* | *-220 872 309,00* |
| ***Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| İstiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov (ipoteka) kağızlarının və digər qısamüddətli və uzunmüddətli istiqrazların buraxılmasından pul vəsaitlərinin daxilolmaları | | |
| Borc şəklində alınmış məbləğlərə görə daxilolmalar | 0,00 | 0,00 |
| ***CƏMİ DAXİLOLMALAR*** | *0,00* | *0,00* |
| ***Pul xaricolmaları*** | | |
| Hökumətə və ya onun adından müvafiq səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanına verilən dividendlər, bölüşdürmələrə görə pul vəsaitlərinin xaricolmaları | | |
| Maliyyə icarəsi üzrə yerinə yetirilməmiş öhdəliyin qalıq məbləğinin azaldılması üçün icarəyə götürən tərəfindən pul vəsaitlərinin ödənişləri | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | |
| ***CƏMİ XARİCOLMALAR*** | *0,00* | *0,00* |
| ***Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | *0,00* | *0,00* |
| ***Pul vəsaitlərinin artması (azalması)*** | *0,00* | *0,00* |
| ***Dövrün əvvəlinə olan qalıq*** | *0,00* | *0,00* |
| ***Dövrün sonuna qalıq*** | *0,00* | *0,00* |

Sədr müavini

Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

M.Y.

Maliyyə və iqtisadiyyat şöbəsinin müdir müavini

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti**

**UÇOT SİYASƏTİ VƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARINA QEYDLƏR**

**31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə**

## 1. MÜƏSSİSƏ HAQQINDA MƏLUMAT

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Cəmiyyət) "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli 372 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin əsasında yaradılmışdır. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

Cəmiyyətin əsas məqsədi meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətləri göstərmək, torpaqların su təminatını həyata keçirmək, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil etmək, bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir.

Cəmiyyətin əsas vəzifəsi səlahiyyətləri daxilində su istehlakçılarını su ilə təmin etmək, yerüstü su obyektlərinin istifadəsini, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını, mühafizəsini və suvarılan torpaqların meliorativ vəziyyəti üzərində nəzarəti həyata keçirmək, su obyektlərindən götürülən suları müəyyən olunmuş qaydada bölüşdürmək və onlardan istifadəyə nəzarət edilməsini təmin etmək, torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə dövlət meliorasiya xidmətini inkişaf etdirmək, meliorasiya və su təsərrüfatı sahəsində regional proqramların həyata keçirilməsini təmin etmək, meliorasiya və su təsərrüfatı sahəsinin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək və bu istiqamətlərə dair proqnoz və layihələrin, standart, norma və qaydaların hazırlanmasında iştirak etmək, meliorasiya və su təsərrüfatının istehsal bazasını gücləndirmək, ondan səmərəli və məqsədyönlü istifadə olunmasını təmin etmək və tabeliyində olan təşkilatları maddi-texniki ehtiyatlarla təchiz etmək, dövlət büdcəsindən, xidmətlər və digər mənbələrdən daxil olan vəsaitlər hesabına görülən əsaslı tikintinin sifarişçisi, podratçısı, istismar tədbirlərinin icraçısı kimi çıxış etmək, Sudan İstifadəedənlər Birliklərinin fəaliyyətinə nəzarəti qanunvericiliyə uyğun olaraq öz səlahiyyətləri daxilində həyata keçirmək, su təchizatına yönəldilən xərclərin qismən ödənilməsini təmin etmək məqsədi ilə mövcud qanunvericiliyə uyğun olaraq, sudan pullu istifadəni təmin etmək, yerüstü su obyektlərinin istifadəsi, mühafizəsi və suların zərərli təsirinin qarşısının alınması üzrə təklifləri və yerüstü su obyektlərinin monitorinq məlumatlarını aidiyyəti dövlət orqanlarına təqdim etmək, səlahiyyətləri daxilində müvafiq beynəlxalq öhdəliklərin həyata keçirilməsini təmin etmək, Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq su münasibətlərinin tənzimlənməsi sahəsində ortaya çıxan məsələləri öz səlahiyyətləri daxilində həll etmək, dövlət mülkiyyətində olan meliorasiya və su təsərrüfatı obyektlərinin istismarı zamanı, eləcə də yeni tikiləcək belə obyektlərin layihələrində təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsini təmin etmək, suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlər işləyib həyata keçirmək, sahilqoruyucu obyektlərin istismarını təşkil etmək, su obyektlərinin su mühafizə zonalarını və sahil mühafizə zolaqlarının ölçülərini, sərhədlərini və istifadəsini müvafiq dövlət orqanları ilə razılaşdırmaqla müəyyən etmək və təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək, meliorasiya və su təsərrüfatı obyektləri boyunca qoruyucu meşə zolaqlarının salınmasını, onların saxlanılmasını və qorunmasını təmin etmək, müasir elm, texnika və mütərəqqi texnologiyalar əsasında sahənin elmi və sosial-iqtisadi inkişafını təmin etmək, hüquqi və fiziki şəxslər tərəfindən sudan istifadə qaydalarına və normalarına əməl olunmasına səlahiyyətləri daxilində nəzarət etmək, bu normaları və qaydaları pozanlara

qarşı qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görmək, qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirməkdən ibarətdir.

Cəmiyyət yuxarıda göstərilən məqsəd və funksiyaları tabeliyində olan idarə, müəssisə və təşkilatlar vasitəsilə həyata keçirir. Cəmiyyətin strukturuna daxil olan və büdcədən maliyyələşən təşkilatların siyahısı aşağıda göstərilmişdir.

| **Suvarma sistemləri idarəsi üzrə - 49 təşkilat** | | | | | |
|---|---|---|---|---|---|
| **S/S** | **İdarənin adı** | **S/S** | **İdarənin adı** | **S/S** | **İdarənin adı** |
| 1 | Ağcabədi SSİ | 18 | Yevlax SSİ | 35 | Tovuz SSİ |
| 2 | Ağdaş SSİ | 19 | Zərdab SSİ | 36 | Ucar SSİ |
| 3 | Ağsu SSİ | 20 | Zaqatala SSİ | 37 | Füzuli SSİ |
| 4 | Abşeron SSİ | 21 | Zəngilan SSİ | 38 | Göygöl SSİ |
| 5 | Ağstafa SSİ | 22 | Kəlbəcər SSİ | 39 | Xızı SSİ |
| 6 | Astara SSİ | 23 | Kürdəmir SSİ | 40 | Xaçmaz SSİ |
| 7 | Bərdə SSİ | 24 | Göyçay SSİ | 41 | Şəmkir SSİ |
| 8 | Beyləqan SSİ | 25 | Goranboy SSİ | 42 | Şamaxı SSİ |
| 9 | Balakən SSİ | 26 | Laçın SSİ | 43 | Şəki SSİ |
| 10 | Biləsuvar SSİ | 27 | Neftçala SSİ | 44 | Cəbrayıl SSİ |
| 11 | Qazax SSİ | 28 | Oğuz SSİ | 45 | Cəlilabad SSİ |
| 12 | Qusar SSİ | 29 | Samux SSİ | 46 | İmişli SSİ |
| 13 | Qax SSİ | 30 | Saatlı SSİ | 47 | İsmayıllı SSİ |
| 14 | Qəbələ SSİ | 31 | Salyan SSİ | 48 | Hacıqabul SSİ |
| 15 | Qubadlı SSİ | 32 | Sabirabad SSİ | 49 | Xocavənd SSİ |
| 16 | Quba SSİ | 33 | Siyəzən SSİ | | |
| 17 | Şabran SSİ | 34 | Tərtər SSİ | | |
| **Hidroqovşaqların istismarı idarəsi – 5 təşkilat** | | | | | |
| 1 | Ağstafaçay HQİİ | 3 | Mil Muğan HQİİ | 5 | Tərtərçay HQİİ |
| 2 | Bəhrəmtəpə HQİİ | 4 | Yuxarı Xanbulançay HQİİ | | |
| **Mexaniki Suvarma Sistemləri idarəsi – 1 təşkilat** | | | | | |
| 1 | Ağdam MSİ | | | | |
| **Kanal İstismar İdarəsi – 4 təşkilat** | | | | | |
| 1 | Yuxarı Qarabağ KİI | 3 | Cənubi Muğan KİI | | |
| 2 | Yuxarı Şirvan KİI | 4 | Samur Abşeron KİI | | |
| **Kollektor İstismar İdarəsi – 5 təşkilat** | | | | | |
| 1 | Baş Mil Muğan KİI | 3 | Baş Şirvan KİI | 5 | Mil Qarabağ və AŞKİİ |
| 2 | Mərkəzi Muğan KİI | 4 | Aşağı Muğan MSİİ | | |
| **Su anbarı İstismarı İdarəsi – 2 təşkilat** | | | | | |
| 1 | Şəmkirçay SAİİ | 2 | Viləşçay SAİİ | | |
| | | | | | |
| Kür-Araz çaylarında bəndlərin istismarı idarəsi – 1 təşkilat | | | | | |
| Hidrogeoloji meliorativ xidmət idarəsi – 1 təşkilat | | | | | |
| MİOQ və Suların istifadəsinə Mühafizəsinə Nəzarət idarəsi – 1 təşkilat | | | | | |
| Texnoloji İstehsalat və Komplektləşdirmə idarəsi – 1 təşkilat | | | | | |
| TOM və İOBM – 1 təşkilat | | | | | |
| Cəmiyyətin aparatı – 1 | | | | | |

Cəmiyyətin maliyyə–təsərrüfat fəaliyyətinə aşağıdakı rəhbər şəxslər cavabdehdilər:
Sədr Zaur Rauf oğlu Mikayılov
Sədr müavini Rafiq Sabir oğlu Aslanov

Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri Anar Həsənxan oğlu Əliyev

Maliyyə və iqtisadiyyat şöbəsinin müdir müavini Elşad Şaməddin oğlu Tağızadə

Cəmiyyətin hüquqi ünvanı: Səhmdar Cəmiyyətin hüquqi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, Ü. Hacıbəyli 80, Hökümət evi, AZ 1000.

Auditin keçirilməsi üçün təqdim edilən sənədlərin və məlumatların düzgünlüyünə Cəmiyyətin rəhbərliyi məsuliyyət daşıyır.

## 2. TƏQDİMATIN ƏSASI

Təqdim edilən konsolidə edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixində başa çatan il üzrə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin və onun tabeli təşkilatları üçün Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-13 nömrəli 25 dekabr 2018-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları"na uyğun hazırlanmış və konsolidə edilmişdir. Hesabata 72 büdcədən maliyyələşən təşkilatın maliyyə hesabatları daxil edilmişdir. Eyni zamanda əsaslı tikinti məqsədlərinə büdcədən və digər mənbələrdən ayrılmış vəsaitlər konsolidə edilərək ümumi balansda öz əksini tapmışdır.

Cəmiyyət maliyyə hesabatlarını yalnız hesablama metoduna uyğun olaraq hazırlayır. Hesablama metoduna uyğun olaraq, gəlir maddələri onların əldə edildiyi hesabat dövrləri üzrə bölüşdürülür. Yəni, satış məbləği, onun alıcı (sifarişçi) tərəfindən ödənilməsi zamanından asılı olmayaraq, göstərilmiş xidmətlərin və ya yerinə yetirilmiş işlərin sifarişçi tərəfindən qəbul edildiyi zaman gəlir kimi tanınır. Həmçinin, xərc maddələri cəmiyyət tərəfindən, onların müvafiq dövrdə ödənilməsindən asılı olmayaraq, yarandığı hesabat dövrləri üzrə uçota alınır. Hesablama prinsipindən istifadə edilərkən obyektlər, maliyyə hesabatlarının elementləri haqqında anlayışa və tanınma meyarlarına uyğun gəldikləri halda hesabatlarda aktivlər, öhdəliklər, kapital, gəlir və xərclər kimi tanınır. Cəmiyyət maliyyə hesabatlarını "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edir.

## 3. ƏMƏLİYYAT VALYUTASI

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir Müəssisənin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

## 4. PUL VƏSAİTLƏRİ VƏ EKVİVALENTLƏRİ

Pul vəsaitləri – nağd pul vəsaitləri, Dövlət Xəzinədarlığında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir. Cəmiyyətin bank hesabı yoxdur. Dövlət büdcəsindən nəzərdə tutulan təxsisatlar və büdcədəndənar fəaliyyətdən daxil olan vəsaitlər Xəzinadarlıq vasitəsilə icra edilir və ilin sonuna bu mənbələr üzrə qalan vəsait qalıqları Dövlət büdcəsinə silinir. Odur ki, Cəmiyyətin ilin sonuna hər hansı pul vəsaitləri qalığı olmamışdır.

## 5. TORPAQ, TİKİLİ, AVADANLIQLAR VƏ DİGƏR UZUNMÜDDƏTLİ AKTİVLƏR

Torpaq, tikili və avadanlıqların və digər uzunmüddətli aktivlərin dəyəri İctimai Sektor üçün 17 №-li BMUS-a əsasən həmin obyektlə bağlı gələcək iqtisadi səmərənin və ya xidmət potensialının təşkilata daxil olması ehtimal edildikdə və ya obyektin qiyməti və ya ədalətli dəyəri etibarlı əsasla qiymətləndirilə bildikdə yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli").

Torpaq, tikili və avadanlıqlar, bioloji aktivlər və qeyri-maddi aktivlərə amortizasiya Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-12 nömrəli 24 dekabr 2012-ci il tarixli Qərarı ilə təsdiqlənmiş "Büdcə təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə" Təlimata əsasən istifadəyə verildiyi gündən etibarən, faydalı istismar müddətinə müvafiq olaraq düzxətli metod tətbiq olunmaqla hesablanır. Təlimata əsasən anbarda saxlanılan əsas fondlara, kapitallaşdırılmış məsrəflərə, məhsuldar heyvanlara, tam amortizasiya olunmuş yararsız hala düşmüş əsas

fondlara, istismarı müvəqqəti dayandırılmış əsas fondlara amortizasiya hesablanmır. Digər əs s fondlara amortizasiya aşağıdakı kimi hesablanır.

| | |
|---|---|
| Binalar | 1%-7% |
| Qurğular | 1%-12% |
| Maşın və avadanlıqlar | 3%-12% |
| Nəqliyyat vasitələri | 5%-12% |
| Sair TTA | 11% |
| Bioloji aktivlər | 1%-12% |

Cəmiyyətin balansında torpaq yoxdur. Qalan bütün əsas vəsaitlər ilkin dəyərdən amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir. İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri də nəzərdə tutur.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Cari təmir və istismar xəclərinin qanunvericiliklə müəyyən edilmiş normalar həddində olan hissəsi tikili və avadanlıqlara hesablanmış məsrəflər hesab edilir və o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir.

Cəmiyyət üzrə əsas vəsaitlərin hərəkəti aşağıdakı kimi olmuşdur:

pul vahidi: AZN

| Torpaq, tikili, avadanlıq və bioloji aktivlər | Torpaq | Binalar tikililər və qurğular | Maşınlar və avadanlığlar | Digər torpaq tikili və avadanlığlar | Nəqliyyat Vasitələri | Bioloji aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| 1 yanvar 2021 tarixə ilkin dəyər | | 4,357,910,169 | 287,257,892 | 3,375,771 | 103,041,228 | 204,533 | 4,751,789,593 |
| 1 yanvar 2021 tarixə yığılmış amortizasiya | | 1,264,820,798 | 156,758,899 | 2,103,578 | 75,373,742 | 69,725 | 1,499,126,742 |
| | | | | | | | |
| 1 yanvar 2021 tarixə balans dəyəri | 0 | 3,093,089,371 | 130,498,993 | 1,272,193 | 27,667,486 | 134,808 | 3,252,662,851 |
| Daxilolmalar | 0 | 261,135,417 | 8,238,660 | 200,857 | 11,187,703 | 640,473 | 281,403,110 |
| Silinmələr | 0 | -927,387 | -571,459 | -63,041 | -247,393 | -52,533 | -1,861,813 |
| əvəzsiz verilmə | | | -16,111 | | | | -16,111 |
| Köçürmələr | | -1,313,086 | 1,302,089 | 13,086 | -2,089 | | 0 |
| Amortizasiya hesablamaları | 0 | 199,760,674 | 13,001,507 | 272,429 | 13,452,884 | 761 | 226,488,255 |
| Xaricolmalar üzrə amortizasiya | 0 | -794,731 | -575,960 | -57,160 | -234,453 | | -1,662,304 |
| Köçürmələr üzrə amortizasiyalar Əlavələr | 0 | -110,206 | 102,168 | 7,057 | 981 | | 0 |
| (təmir işləri ilə əlaqədar aşınma bərpa olunur) | | | | | | | |
| 31 dekabr 2021 tarixə ilkin dəyər | 0 | 4,616,805,113 | 296,211,071 | 3,526,673 | 113,979,449 | 792,473 | 5,031,314,779 |
| Yığılmış amortizasiya | 0 | 1,463,676,535 | 169,286,614 | 2,325,904 | 88,593,154 | 70,486 | 1,723,952,693 |
| 31 dekabr 2021 tarixə balans dəyəri | 0 | 3,153,128,578 | 126,924,457 | 1,200,769 | 25,386,295 | 721,987 | 3,307,362,086 |

Müəssisə mühasibat uçotu və hesabatının doğru və düzgünlüyünü təsdiq etmək məqsədilə Maliyyə Nazirliyinin 16 iyul 2013-ci il tarixli Kolleqiya Qərarı ilə təsdiqlənmiş "Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydalarına" əsasən hesabat dövründə əsas vəsaitlərin invetarizasiyasını aparmışdır.

## 6. QEYRİ-MADDİ AKTİVLƏR

İctimai Sektor üçün 31№-li MUBS-a əsasən qeyri-maddi aktiv hər hansı yığılmış amortizasiya və hər hansı yığılmış qiymətdən düşmə zərərləri çıxılmaqla özünün ilkin dəyəri ilə uçota alınır.

Qeyri-maddi aktivin uçotu onun faydalı istifadə müddətinə əsaslanır. Faydalı istifadə müddəti məhdud olan qeyri-maddi aktiv amortizasiya edilir, faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri-maddi aktivlər isə amortizasiya olunmur.Məhdud istismar müddətli qeyri-maddi aktivin amortizasiya məbləği müntəzəm əsasda onun faydalı istifadə müddəti üzrə paylaşdırılır.

| *Qeyri maddi aktivlər* | AZN<br>məbləğ |
|---|---|
| 1 yanvar 2021 tarixə ilkin dəyər | 346 877.00 |
| Yığılmış amortizasiya | 13 500.00 |
| ***1 yanvar 2021 tarixə balans dəyəri*** | ***333 377.00*** |
| Daxilolmalar | 597 025.00 |
| Xaricolmalar | 0.00 |
| Amortizasiya hesablamaları | 79 981.00 |
| Xaricolmalar üzrə amortizasiyalar | 0.00 |
| Yenidənqiymətləndirmə | 0.00 |
| ***31 dekabr 2021 tarixə ilkin dəyər*** | ***943 902.00*** |
| Yığılmış amortizasiya | 93 481.00 |
| ***31 dekabr 2021 tarixə balans dəyəri*** | ***850 421.00*** |

Cəmiyyət mühasibat uçotu və hesabatının doğru və düzgünlüyünü təsdiq etmək məqsədilə Maliyyə Nazirliyinin 16 iyul 2013-ci il tarixli Kolleqiya Qərarı ilə təsdiqlənmiş "Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydalarına" əsasən hesabat dövründə qeyri-maddi aktivlərin invetarizasiyasını aparmışdır.

## 7. KAPİTALLAŞMA

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 23 sentyabr 2014-cü il tarixli Q-19 saylı "Təm məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar"a əsasən əsas fondların əsaslı təmirin çəkilən xərclər bütövlükdə, əsas fondların balans (qalıq dəyərinə) dəyərinə artırılır. Səhmdar Cəmiyyət üzr il ərzində 148 019 566 manat, o cümlədən 98 386 683 manat investisiya, 30 650 402 meliorasiya tədbirlər üzrə kapitallaşma aparılmışdır. Qaydalara əsasən kapitallaşma əsas fondların qalıq dəyərinə artırılmış v yalnız istismarda olan əsas fondlara tətbiq edilmişdir.

| Məsrəflərin kapitallaşdırılması | 31.12.2021 | Dövrün xərci kimi silinən | TTA kimi qəbul olunan | İl ərzində kapitallaşdırılan | 31.12.2020 |
|---|---|---|---|---|---|
| Torpaq Tikili Avadanlıq ilə bağlı məsrəflərin kapitallaşdırılması (233 №-li hesab üzrə) | 181 081 016 | -- | 128 056 104 | 147 942 035 | 161 195 085 |
| Əsas vəsaitin anbar qalığı (233-2 nömrəli hesab üzrə) | 77 741 | -- | 2 498 | 77 531 | 2 708 |
| **CƏMİ :** | **181 158 757** | -- | **128 058 602** | **148 019 566** | **161 197 793** |

Təlimata əsasən qeyri-maddi aktivlərin strukturu qeyri-maddi aktivlər və qeyri-maddi aktivlər üzrə kapitallaşdırılmış məsrəflər sinfi olaraq qruplaşdırılmışdır. Məhdud istifadə müddətli qeyri-maddi aktıvlər üzrə amortizasiya norması həmin qeyri-maddi aktivin dəyərinin onun istismar müddətinə bölünməklə qeyri-maddi aktivlər üzrə kapitallaşdırılmış məsrəflər isə aktivin qalıq (balans) dəyərinə əlavə edilməklə uçotu aparılır.

| Məsrəflərin | 31.12.2021 | Dövrün xərci kimi silinən | QMA kimi qəbul olunan | İl ərzində kapitallaşdırılan | 31.12.2020 |
|---|---|---|---|---|---|
| QMA üzrə məsrəflərin kapitallaşdırılması | 1 862 274 | -- | -- | 1 100 000 | 762 274 |
| **CƏMİ :** | **1 862 274** | -- | -- | **1 100 000** | **762 274** |

## 8. EHTİYATLAR

Ehtiyatlar İctimai Sektor üçün 12 №-li BMUS-a əsasən maya dəyəri ilə xalis satış dəyəri arasında daha az olan dəyərdə tanınır. Mal-material ehtiyatlarının maya dəyəri "ilk mədaxil ilk məxaric" metodu ilə müəyyən edilir. Hazır məhsul və başa çatdırılmamış işlərin maya dəyərinə borc vəsaitləri üzrə xərclər istisna olmaqla, xammal, birbaşa işçi qüvvəsi, digər birbaşa xərclər və müvafiq istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir. Xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

Cəmiyyətdə xammal və materiallar və digər ehtiyatlar üzrə qiymətlilərin hərəkəti aşağıdakı kimi olmuşdur:

| Ehtiyatlar | 31.12.2021 | İl ərzində xərcə silinən | İl ərzində alış | 31.12.2020 |
|---|---|---|---|---|
| Yanacaq və sürtgü materialları | 2 030 718 | 20 837 478 | 20 667 264 | 2 200 932 |
| Ehtiyat hissələri (nəql.vas və nasos) | 2 305 340 | 13 633 911 | 13 475 584 | 2 463 667 |
| Tikinti materialları | 1 015 465 | 12 737 597 | 12 823 585 | 929 477 |
| Dəftərxana və təsərrüfat malları | 119 680 | 486 041 | 478 242 | 127 479 |
| Dərman və sarğı materialları | 0 | 20 238 | 8 500 | 11 738 |
| Digər ehtiyatlar | 27 971 439 | 37 628 662 | 44 590 703 | 21 009 398 |
| **CƏMİ:** | **33 442 642** | **85 343 927** | **92 043 878** | **26 742 691** |

Ehtiyatların qalığında ötən ilə nisbətən 6 699 951 manat artım olmuşdur ki, bu da Səhmdar Cəmiyyətin tabeli strukturu-Texnoloji İstehsalat və Komplektləşdirmə idarəsi tərəfindən mərkəzləşdirilmiş qaydada əvəzsiz paylanılmaq üçün alınmış aktivlərin (mal-material və əsas fondların) uçotunun cari ildə "Satış məqsədilə saxlanılan digər aktivlər" hesabında aparılması ilə yaranmışdır.

Cəmiyyət mühasibat uçotu və hesabatının doğru və düzgünlüyünü təsdiq etmək məqsədilə Maliyyə Nazirliyinin 16 iyul 2013-ci il tarixli Kolleqiya Qərarı ilə təsdiqlənmiş "Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydalarına" əsasən hesabat dövründə ehtiyatların invetarizasiyasını aparmışdır.

## 9. İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR VƏ AİDİYYATI AYIRMALAR

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Cəmiyyət işçilərin əmək haqqlarından "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 25 faiz (22 faiz işəgötürən, 3 faiz işçi), "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən 1 faiz (0.5 faiz işəgötürən, 0.5 faiz işçinin hesabına) və "İcbari tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununa uyğun 4 faiz (2 faiz işəgötürən, 2 faiz işçinin hesabına) olmąqla məcburi sosial sığorta haqları tutur və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna köçürür.

2021-ci ildə Cəmiyyətə işçilərin orta sayı **19 439** nəfər və orta aylıq əmək haqqı **408.5** manat təşkil etmişdir. İlin sonuna müəssənin işçilərə əmək haqqı borcu **5 723.0** manat təşkil etmişdir. İl ərzində işçilərin əmək haqqından **20 755 956** manat Dövlət Sosial Müdafiə Fonduna ayırmalar

hesablanmış və Fondun hesabına **20 755 177** manat köçürülmüşdür. İşçilərin əməyinin ödənişi ştat cədvəlinə əsasən hesablanıb kart vasitəsi ilə ödənilmişdir.

## 10. GƏLİR VƏ XƏRCLƏRİN TƏHLİLİ

Cəmiyyətin gəlirləri dövlət büdcəsindən, büdcədənkənar vəsaitlərdən, kreditlərdən, qrantlardan və istehsalatdan daxil olan, qanunvericilikdə qadağan olunmayan fəaliyyət növlərindən əldə edilən vəsaitlərdən ibarətdir. Dövlət büdcəsindən maliyyələşmələr büdcəyə qaytarılan və avans ödənişləri çıxılmaqla qeyri-birja, mal, iş və xidmətlərin satışından daxilolmalar birja, sair mənbələrdən alınmış vəsaitlər və əvəzsiz alınmış aktivlər sair əməliyyat gəliri kimi tanınmışdır.

2021-ci ildə Cəmiyyətə dövlət büdcəsindən və büdcədənkənar mənbələrdən 513 591 627 manat pul vəsaiti, o cümlədən istismar tədbirləri xərclər smetasına uyğun olaraq 401 232 438 manat, tikinti və bərpa işlərinə 107 550 620 manat, və büdcədənkənar xüsusi vəsaitlər üzrə 4 808 569 manat vəsait daxil olmuşdur. 2021-ci ildə istismar tədbirləri üzrə 400 815 469 manat pul vəsaiti xərclənmiş, 416 969 manat pul vəsaiti xərclənməmiş qalıq kimi büdcəyə silinmişdir. İl ərzində daxil olan büdcədənkənar vəsaitlərdən 3 617 874 manat istifadə edilmiş, 1 190 695 manat xərclənməmiş vəsait isə qalıq kimi büdcəyə silinmişdir. Tikinti və bərpa işləri üzrə 107 550 620 manat vəsait xərclənmişdir.

Büdcədənkənar xüsusi vəsaitlər İctimai Sektor üçün 9 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı "Birja əməliyyatlarından gəlirlər" adlı Standarta əsasən xidmətlərin göstərilməsi və məhsulların satışından ibarətdir. İl ərzində Cəmiyyətə suvarma suyu, qara və əlvan metal satışından 4 124 043 manat pul vəsaiti daxil olmuşdur ki, daxil olan pul vəsaiti hesablama metoduna əsasən gəlir kimi tanınmışdır.

Cəmiyyətin 2021-ci ildə ümumi xərclərinin icrası aşağıdakı kimi olmuşdur:

*AZN*

| Xərclər | 12/31/2021 | 12/31/2020 |
|---|---|---|
| *Əmək haqqı xərcləri* | **83,026,846.00** | **89,334,838.00** |
| *DSMF-ya ayırmalar* | **23,343,786.00** | **22,261,032.00** |
| *İşçilərin icbari sığortası* | **509,578.00** | **509,693.00** |
| *Digər mükafatlandırmalar* | **12,314,657.00** | **9,621,712.00** |
| *Təqaüd, müavinət və sosial ödənişlər* | **266,204.00** | **237,515.00** |
| *Sair əməliyyat xərcləri* | **430,285,462.00** | **400,435,196.00** |
| o cümlədən | | |
| *Kommunal xərclər* | 139,570,112.00 | 137,951,357.00 |
| *Poçt, rabitə və internet* | 305,722.00 | 297,055.00 |
| *Ezamiyyə xərcləri* | 399,743.00 | 380,093.00 |
| *İcarə xərci* | 81,864.00 | 78,694.00 |
| *Cari təmir xərcləri* | 44,470,582.00 | 62,861,492.00 |
| *Nəqliyyat xidmətləri xərcləri* | 0.00 | 255,605.00 |
| *Mətbəə xərcləri* | 55,255.00 | 51,507.00 |
| *Dəftərxana və təsərrüfat xərcləri* | 347,854.00 | 419,512.00 |
| *Sair xərclər* | 11,556,083.00 | 651,903.00 |
| *Mühafizə xərcləri* | 2,503,449.00 | 2,371,493.00 |
| *Abadlaşdırma xərcləri* | 167,191.00 | 178,959.00 |
| *Elmi-tədqiqat xidmətləri xərcləri* | 3,816,420.00 | 4,321,246.00 |
| *Bank xərcləri* | 345,700.00 | 404,778.00 |
| *İllik amortizasiya* | 226,568,236.00 | 189,431,031.00 |
| *iz verilən uzumüddətli aktivlərin dəyəri* | 16,111.00 | 748,999.00 |
| *Əsas vəsaitlərin silgisi* | 81,140.00 | 31,472.00 |
| **Cəmi** | **549,746,533.00** | **522,399,986.00** |

İstismar tədbirləri üzrə xərclər smetasının ayrı-ayrı xərc maddələri araşdırıldıqda müəyyən olunur ki, 222210-"Enerji xərcləri" maddəsi üzrə faktiki xərc kassa xərcindən 5 950 127 manat az, 312130-"Qurğuların (tikintilərin) əsaslı təmiri" maddəsi üzrə isə 4 413 078 manat az yerinə yetirilmişdir. Digər maddələr üzrə isə artıq xərc edilməmişdir.

## 11. DEBİTOR VƏ KREDİTORLARLA HESABLAŞMALAR

Cəmiyyətin debitor borcları alıcılar və sifarişçilərlə hesablaşmadan, kreditor borcları isə mal gondərənlər, podratçılar və digər kreditorlarla hesablaşmalardan yaranır.

Debitor borcları hesablama metoduna əsasən mal, iş və xidmətlərin satılması zamanı yaranır və yarandığı anda gəlir kimi tanınır. Kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirilməsi zamanı yaranır və yarandığı anda xərc kimi tanınır.

2021-ci ilin yekunlarına görə Cəmiyyətin alıcı bə sifarişçilərlə debitor borcları aşağıdakı kimi olmuşdur:

| Qısamüddətli debitor borcları | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Xidmətlərin göstərilməsi üzrə (SİB) | 21 840 | 244 278 |
| Digər qısamüddətli debitor borcları | -- | -- |
| **CƏMİ :** | **21 840** | **244 278** |

Cari ildə suvarma suyunun satışından yaranmış debitor borcları ötən ilə nisbətən 222 438 manat azalaraq 21 840 manat təşkil etmişdir.

2021-ci ilin yekunlarına görə Cəmiyyətin mal gondərənlər, podratçılar və digər kreditorlarla hesablaşmalardan borcları aşağıdakı kimi olmuşdur:

| Qısamüddətli kreditor borcları | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Elektrik enerjisi | 117 926 | 6 067 785 |
| İşçi heyətinə qısamüddətli kreditor borcları | 5 723 | 1 567 |
| Digər qısamüddətli kreditor borcları | 2 240 | 1 554 |
| Məcburi dövlət sosial sığorta ödənişləri | -- | 2 450 |
| ***Cəmi*** | ***125 889*** | ***6 073 356*** |

Qısamüddətli kreditor borcları bölməsində Səhmdar Cəmiyyətin 12 ay ərzində malsatan və podratçılara, habelə əməyin ödənişi üzrə, vergi və digər məcburi dövlət sosial sığorta ödənişləri barədə ümumiləşdirilmiş məlumatlarının uçotu aparılır.

Cari ildə ötən ildən vəsait çatışmazlığı ilə əlaqədar yaranan 6 067 785 manat məbləğində kreditor borcu ödənilmiş, nəticədə kreditor borclarının məbləğində 5 947 467 manat azalma olmuşdur.

Bütün qısamüddətli debitor və kreditorlarla hesablaşmaların hesabat ilinin sonuna olan qalıqları qarşı tərəflərlə Maliyyə Nazirliyinin 16 iyul 2013-ci il tarixli Kolleqiya Qərarı ilə təsdiqlənmiş "Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydalarına" əsasən üzləşdirilərək təsdiq edilmişdir.

## 12. AVANS ÖDƏNİŞLƏRİ

Avans ödənişi üzrə mal, iş və xidmətlərin bir il ərzində əldə edilməsi nəzərdə tutulduqda qısamüddətli, bir ildən uzun müddətə əldə edilməsi nəzərdə tutulduqda uzunmüddətli aktiv kimi təsnifləşdirilir.

Malların alınması, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi məqsədi ilə qarşı tərəfə 12 aydan az müddətə əvvəlcədən qismən ödənilmiş pul vəsaitləri üzrə verilmiş qısamüddətli avanslar 2021-ci ildə aşağıdakı kimi olmuşdur:

| **Sair qısamüddətli aktivin adı** | **31.12.2021** | **31.12.2020** |
|---|---|---|
| Təhtəlhesab məbləğlər | -- | -- |
| Ödənilmiş avans | 14 416 445 | 3 500 350 |
| **CƏMİ :** | **14 416 445** | **3 500 350** |

İl ərzində sair qısamüddətli aktivlər 10 916 095 manat artaraq 14 416 445 manat təşkil etmişdir ki, bu da əsasən bağlanmış müqavilələr əsasında avans olaraq tikinti məqsədlərinə və yanacaq alınması üçün köçürülmüş vəsaitlərdir.

Səhmdar Cəmiyyətə birja və qeyri-birja fəaliyyəti ilə bağlı dövlət büdcəsindən, büdcədənkənar fondlardan və digər büdcələrdən alınmış vəsaitlər üzrə gəlirlərin hərəkəti barədə ümumiləşdirilmiş məlumatlar "Qısamüddətli məqsədli maliyyələşmələr və daxilolmalar" hesabında əksini tapmışdır. Bu bölmədə dövlət büdcəsindən istismar tədbirlərinə və tikinti məqsədlərinə ayrılmış vəsaitlərin uçotu aparılır.

Göndəriləcək mal, görüləcək iş və xidmətlərə görə qarşı tərəfdən alınmış qısamüddətli avanslara görə Cəmiyyətin öhdəlikləri 2021-ci ildə 10 947 300 manat artaraq 14 407 351 manat təşkil etmişdir ki, bu da əsasən tikinti məqsədləri üçün icraçı şirkətlərə (11 040 193 manat) və istismar tədbirləri üzrə (3 367 158 manat) malsatan və podratçılara ödənilən avans ödənişlərindən ibarət olmuşdur.

Cəmiyyət mühasibat uçotu və hesabatının doğru və düzgünlüyünü təsdiq etmək məqsədilə Maliyyə Nazirliyinin 16 iyul 2013-ci il tarixli Kolleqiya Qərarı ilə təsdiqlənmiş "Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydalarına" əsasən hesabat ilinin sonuna qısamüddətli avans borcları üzrə olan qalıqların qarşı tərəflərlə üzləşdirilərək təsdiq edilməsini həyata keçirmişdir.

## 13. PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABATIN BÖLMƏLƏR ÜZRƏ AÇIQLAMASI

Cəmiyyətə il ərzində dövlət büdcəsindən istismar tədbirləri üzrə 401 232 438 manat, tikinti məqsədləri üçün 107 550 620 manat olmaqla, ümumilikdə 508 783 058 manat vəsait ayrılmışdır. Cəmiyyətin digər fəaliyyət üzrə gəlirləri (suvarma suyunun satışı, tenderdən daxilolmalar, metal satışı) 4 808 569 manat təşkil etmişdir ki, bunun da 3 997 399 manatı suvarma suyunun satışından daxil olan pul vəsaitidir.

Daxil olan pul vəsaitlərindən 222 938 772 manat mallara və xidmətlərə görə təchizatçılara, 119 856 430 manat işçilərə və onların adından pul vəsaitlərinin ödənişləri olaraq ödənilmişdir.

İl sonunda xərclənməyən 1 607 664 manat, o cümlədən istismar tədbirləri üzrə 416 969, digər fəaliyyət üzrə gəlirlərdən daxilolmalardan 1 190 695 manat pul vəsaiti xərclənməmiş olaraq büdcəyə silinmişdir.

İl ərzində Səhmdar Cəmiyyət üzrə torpaq, tikili və avadanlıqların, qeyri-maddi və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün 169 188 761 manat pul vəsaiti ödənilmişdir.

Səhmdar Cəmiyyəti büdcə və büdcədənkənar vəsaitlərin faktiki və kassa icrası üzrə hesabat formasını (forma 2) tərtib etmiş və Maliyyə Nazirliyinə təhqdim etmişdir.Eyni zamanda Səhmdar Cəmiyyəti büdcə və büdcədənkənar vəsaitlərin qalıqları üzrə müvafiq Xəzinədarlıq orqanları ilə üzləşmələr aparmışdır.

## 14. MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ

"Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat"a əsasən Səhmdar Cəmiyyətin il ərzində mənfəəti 79,137,610.00 manat təşkil etmişdir ki, bu da əsasən yeni tikilmiş meliorasiya obyektlərinin istismara verilməsi ilə əlaqədardır.

Səhmdar Cəmiyyəti büdcədən maliyyələşən təşkilat statusuna aid olduğuna görə mənfəət vergisi ödəyicisi olmayıb vergi bəyannaməsi vermir. Maliyyə nəticələrinə görə yaranan mənfəət Cəmiyyətin "Digər Ehtiyatlar" bölməsi üzrə kapitalın artırılmasına yönəldilmişdir.

## 15. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI VƏ ƏMLAKI

Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. Cəmiyyətin nizamnamə kapitalı 728 428 260 manat olmaqla, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 20 manat olan 36 421 413 ədəd adi səhmlərdən ibarətdir.

Cəmiyyətin əmlakı aşağıda göstərilən mənbələr hesabına təşkil olunur:

- Nizamnamə kapitalına daxil olan əmlak;
- Səhmdarın vəsaiti hesabına;
- Təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən daxil olan gəlirlər;
- Qanunvericilikdə qadağan olunmayan digər mənbələr.

Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Sədr müavini ____________

Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri ____________ M.Y.

Maliyyə və iqtisadiyyat şöbəsinin müdir müavini ____________